“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV



# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 04 (04) ✦ AVQUST-SENTYABR 2024-CÜ İL



## Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Balakən şəhərində vətəndaş qəbulu həyata keçirdi

Komitə sədri Anar Quliyev Balakən şəhərində Qax, Qəbələ, Oğuz, Zaqatala, Balakən və Şəki rayonlarından olan sakinlərlə görüşüb.

Qəbuldan öncə Komitə sədri Anar Quliyev və Balakən RİH-in Başçısı İslam Rzayevlə dağüstü parka gələrək Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini hörmət və ehtiramla andılar.

3 avqust 2024-cü il tarixində keçirilən qəbul zamanı torpaq münasibətləri, tikintiyə icazələrin verilməsi ilə bağlı suallar cavablandırılıb, Komitə tərəfindən yaradılan elektron icazə sisteminin üstünlükləri barədə vətəndaşlara ətraflı məlumat verilib.

YENI BALAKƏN



## Balakəndə seçicilər səs verir



Bu gün 1-i Sentyabr Milli Məclisə seçkilər günüdür. Ölkəmizin hər yerində olduğu kimi Balakənlilər də vətəndaşlıq vəzifəsini yerinə yetirərək seçki mənqələrinə gəlib öz layiqli namizədlərinə səs verirlər. Seçkidə iştirak edərək cənab Prezidentin siyasətinə dəstək olur, Xalq-Rəhbər birliyini əyani nümayış etdirirlər. Gəzdiyim, gördüyüm məntəqələrdə ilk dəfə səs verən vətəndaşlarımızdan Musayeva Nazlı Mahama qızı, İsmayılov Əsəbəli Eldar oğlu,100 yaşında olan İosif Pavloviç onu göstərir ki, Balakənimin hər yaş qrupu,təbəqəsi dövlətçiliyimizə bağlıdırlar, ölkəmizdə gedən istənilən siyasi proseslərdə aktivdirlər.

Ramazan ABAL







## İŞIĞA QƏRQ OLAN FÜZULİ, NƏSİMİ KÜÇƏLƏRİ..



Bu ilin I rübbün yekunlarına dair Balakən şəhər İcra Nümayəndəliyinin şəhər sakinlərinin iştirakı ilə keçirilən hesabat tədbirində Füzuli və Nəsimi küçələrinin sakinləri küçələrindəki gecə işıqlanmasının zəif olmasından, çoxu zaman gecələri yanmamasından şikayət edərək onların yenisi ilə əvəz olunmasını xahiş etmişdilər. Balakən Rayon İcra Hakimiyyətinin Başçısı İslam Rzayev də sakinlərə söz vermişdi ki, Füzuli və Nəsimi küçəsinin işıqları yeniləri, daha da gur işıqlı əlvan gecə işıqları ilə əvəzlənəcək, küçələriniz çıraqban olacaq. Rayon rəhbəri sözünü tutdu, vədinə əməl etdi. İndi Füzuli və Nəsimi küçələri çox gözəldir. İşıqlı, sanki nura qərq olub. Samballı, keyfiyyətli işlər ürək açan, xoş olduğundan alqışa layiqdir.

Sözünü tutan Rəhbərə Füzuli və Nəsimi küçəsinin sakinləri təşəkkür edirlər.Və artıq belə parlaq işıqlı küçələrdə gecələri rahat mənzil başına addımladıqlarında: - Sağ olsun, Allah razı olsun - minnətdarlığını kimə edəcəklərini bilirlər..

Ramazan ABAL



## Baş prokuror Balakən rayonunda vətəndaşları qəbul edib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Avqustun 6-da Baş prokuror Kamran Əliyev Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Qax rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 28 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

YENİ BALAKƏN

# "2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində avqustun 10-da Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 110 saylı Balakən seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nəsib Məhəməliyev Yeni Azərbaycan Partiyasının Balakən rayon təşkilatının qərərgahında rayon ziyalıları və ağsaqqalları ilə ilk görüşünü keçirdi











Əvvəlcə Balakən şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək, abidənin önünə gül dəstələri qoyuldu. Sonra şəhidlər xiyabanı ziyarət olunaraq Şəhidlərin ruhuna dualar oxunub, xatirə kompleksinin qarşısına gül dəstəsi qoyuldu.

Növbəti günlərdə şəhərdə fəaliyyət göstərən müxtəlif təşkilatların nümayəndələri, həmçinin şəhid ailələri, qazilər, Qarabağ veteranları, gənclər, təhsil sahəsində çalışanlar, səhiyyə kollektivi ilə görüşlər keçirdi. Balakən 110 saylı Dairəsinə aid bütün kəndləri gəzərək seçicilərlə görüşdü, platformasını açıqladı, seçiciləri narahat edən məsələlərlə, kəndlərin problemləri ilə maraqlandı, qeydlərini götürdü. Hər yerdə rəğbətlə qarşılanan namizəd, ona etimad göstərən cənab Prezidentin etimadını doğruldacağını,səs verərək bu etimadı dəstəkləyən seçicilərini də parlametdə layiqincə təmsil edəcəyini bildirdi. Bir çox yerlərdə problemlərlə, seçiciləri narahat edən məsələrlə yerində tanış oldu; Püştətala kəndində uşaq bağçasının köçəcəyi ünvandakı su problemi, Püştətala kənd sakinlərini narahat edən, kənd ərazisindən axan Qaraçayın mənbəyinə qonşu Zaqatala ərazisindən gedərək çay məcrasındakı problemlə yerində tanışlıq, Salban kəndində sakinlərin dilə gətirdiyi meşəyə girə bilməmələri, dəqiq sərhədləri göstərilməyən qoruq problemi, sərhəd zastavası tərəfindən kəndin girişində qoyulması səbəbiylə sakinlərin üzləşdiyi çətinliklər, Meşə Şambul kənd orta məktəbinin tikintisi tələbi ilə əlaqədar olaraq yerində tanışlıq, Sarıbulaq kənd tam orta məktəbin əsaslı təmir işinin yubanması ilə əlaqədar olaraq məktəblə tanışlıq və məktəb kollektivi ilə görüş, Şambul kəndində su probleminin həlli məqsədilə artezian quyusu qazılması istəyilə olan müraciəti olumlu qarşılayaraq məsələ ilə yerində tanışlıq...

Son görüş 30 avqust tarixində Balakən Mədəniyyət Mərkəzində rayon ictimaiyyəti ilə oldu.İctimaiyyətin hər zümrəsinin nümayəndələrinin iştirak etdiyi görüşlərin ən böyüyü,maraqlısı idi. Görüşə hətta namizədin orta məktəbdə birgə oxuduqları sinif yoldaşları belə gəlmişdilər, ona dəstəyini bildirmək üçün. Nəsib müəllimin orta məktəbdən sinif yoldaşı,Respublikanın Əməkdar Artisti Nailə İslamzadə çıxışındakı təqdimatıyla namizədi daha dərindən və köklü tanıdaraq heç dəyişmədiyini, o zaman da sinifinə, məktəbinə, sinif yoldaşlarına, tanıdıqlarına, Balakənlilərinə, Balakəninə münasibəti necə idisə bu gün o cürə qaldığını, haqqın, ədalətin tərəfdarı, məzlumun, köməksizin, imkansızın yanında olduğunu, imkanı daxilində hər şəraitdə, istənilən zamanda müraciət edən insanlara bacardığı bütün köməkliyi göstərdiyini bildirdi..

Çıxış edən deputatlığa namizəd, Nəsib Məhəməliyev Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib. Bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən islahatlar dövlətimizin və xalqımızın təkcə bu gününün deyil, gələcək inkişaf perspektivlərinin zəmanətidir. Qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu günədək əldə etdiyi uğurlara və yeni hədəflərə söykənərək parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılıb.Namizəd onu da bildirdi ki, bu gün Azərbaycan ətrafında dövlətimizin parlaq qələbəsini həzm edə bilməyən böyük güclərin kirli oyunları, məkrli planları heç səngimədən davam edir. Qonşuluqdakı Ermənistanı ikinci Suriyaya çevirmək istəyirlər. Biri birinə zid güclər Ermənistanda hərbi birliklərini yerləşdirirlər və Ermənistanı sürətlə silahlandırırlar. Bunlar, bu hazırlıqlar kimə qarşıdır? - Əlbəttə Azərbaycana. Ermənistanı sülh sazişini imzalamağa qoymayan Fransa, Zəngəzur dəhlizi açılmasın deyə ora SEPAH qüvvələrini soxan İran, Ermənistana monitorinq adı altında keçmiş hərbiçilərini, agenturasını yerləşdirən ABŞ, ermənilərə böyük miqdarda silah sursat verən Hindistan Cənubi Qafqazda əmin amanlığın olmasını istəmirlər. Azərbaycanın isə Dəmir Yumruğu yerindədir. Dövlətimizin gücü birliyimizdədir: Rəhbər və Xalq birliyində.İnanıram ki, bu dəfə də Xalq senyabrın 1-də cənab Prezidentə,onun siyasətinə dəstəyini yüksək səviyyədə nümayiş etdirəcək.

Nəsib Məhəməliyev çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə,istədikləri,kim layiqdirsə o namizədə səs verməyə çağırdı.

Sonda YAP sıralarına yeni qəbul olunanlara partiya biletlərinin təqdimatı oldu.

**Ramazan ABAL**













# MOLLAÇIBİNƏ SAKİNLƏRİNİN DƏRDİ

Püştətala inzibati ərazi vahidinə bağlı Mollaçıbinə kəndinin sakinləri zəhmətkeş, əkin-biçin, maldarlıq, kənd təsərüffatı ilə məşğul olan insanlardır. Gündüzünü tarlada, bağda, naxırda keçirən kənd sakini axşamı evinə dönərək istirahətini edir, günün yorğunluğunu çıxartmaq, sabaha gümrah oyanmaq üçün gecəni yatır. Səhərisi evinin, ailəsinin hər hansı bir ehtiyacını təmin etmək, yaxud yetişdirdiyi bir məhsulu bazara çıxartmaq üçün Balakən şəhər mərkəzinə və ya qonşu Zaqatala rayonuna getməli olur. Hər gün əkdiyi, biçdiyi, yetişdirdiyi bağa, bostana, tarlaya, tövləsindəki, naxırdakı malına, heyvanına baxdığında bir tərəfdən sevinir digər ərəfdən isə əndişələnir, narahatlq hissi keçirir. Təzadlarla yaşayır Mollaçıbinəlilər.

Niyə? Səbəb nədir?

Mollaçıbinə sakinləri "Yeni Balakən" qəzetinə müraciət edərək problemlərini işıqlandırmağı xahiş etmişdilər. Müraciətə cavab olaraq dərhal əraziyə yollandıq,vəziyyətlə yerində tanış olduq,sakinləri dinlədik, çəkilişlər apardıq və aidiyyatı qurumların Balakəndəki nümayəndəlikləri ilə görüşərək məsələlərə aydınlıq gətirmələrini, həlli yolları barədə fikirlərini bildirmələrini xahiş etdik.

Problemlərdən biri yoldur. Katex “Ana” Aidəsindən başlayan Təzə kənd, Beretbinə, Mollaçıbinə, Qaravəli, Qamıştala və Uzuntala kəndlərini əhatə edən, təxminən 10 km uzunluğunda olan yol bərbad gündədir. Asfalt örtüyü olmadığından yolda hərəkət zamanı toz dumanı qalxır,göz gözü görmür. Çalalar,quyular yolda hərəkət edən texnikanı sıradan çıxarır, yağışlı vaxlarda isə yollar orada yığılan sudan, palçıqdan keçilməz olur. Kənddən keçən yollar get gedə daralır. Buna səbəb yol kənarındakı kolların və ağacların hər iki tərəfdən yolun içinə və üstünə doğru böyüməsi,gəlməsidir...

Yol ilə əlaqədar 15 saylı Balakən Yol istismarı idarəsinin müdiri Nizami Sarıyevlə görüşdüyümüzdə bildir-di ki, adı çəkilən yol reqionların iqtisadi inkişaf planına salınıb,əsaslı təmir yəni asfaltaşdırılması nəzərdə tutulub və gözlənilir.Təbii ki, bu böyük layihədir və icrası da cənab Prezidentin vəsait ayırması ilə başlayacaq. Biz, 15 saylı Yol istismarı MMC olaraq mütəmadi olaraq həmən yolda cari təmirlə məşğul olur, yola qreyder salır, çalaları qumla dolduraraq,düzləşdirərək yolun işlək olmasını təmin edirk.

Növbəti problem elektrik xətləri ilə bağlıdır. Belə ki, kəndin böyük əksərityyətində normal dayaqlar, elektrik dirəkləri olsada bəzi istiqamətlərdə hələ də akasiya ağacından olan "klassik dirəklər" vardı. Bu akasiya dirəklərinin bəziləri ömrünü başa vurmuş,bəziləri isə 30-35 dərəcə əyilərək qəza və təhlükəyə səbəb olacaq vəziyyətdədir...

işıqla bağlı Balakən Elektrik Şəbəkəsinin rəisi Sabit Məmmədovla görüşdüyümüzdə bildirdi ki, bəli, vəziyyətdən xəbərdardır. Şəbəkənin işçiləri mütamadi kənddə olurlar, əllərinə keçən hər fürsətdə bir-bir, iki-iki də olsa orda dirəkləri dəyişirlər. Bütün bunları daxili imkanlar hesabına edirlər. Böyük layihələrə düşən yerlərdən çıxan dirəkləri belə yerlərdəki akasiya dirəklərinin yerinə basdırırlar. Əlbətə ki, daxili imkanlar məhduddur.

**P.S.** Sabit müəllim məsuliyyətli, yerində olan kadrdır. O, şəbəkəyə rəis gələndən Balakəndə elektrik sahəsində xeyli işlər görüb. Çox sayda transformatorlar, elektrik dayaqları dəyişdirilib, yeni xətlər çəkilib,bir çox yaşayış yerləri keyfiyyətli elektrik enerjisi ilə təmin edilib. Bircə dəfə işıq sönən kimi hamı telefonu alır əlinə, başlayır irad, şikayət, söyüş yazmağa.. Amma bu qədər işlər də görülüb axı. Bu işlərə də arada təşəkkür yazın, təşəkkür olmasa belə əksini yazanda dozasını ayarlayın görülən işləri xatırlayıb.

Bir başqa problem Mollaçıbinə ərazisindən keçən Qaraçayın şıltaqlığıdır. Qaraçay yaz payız aylarında yağışlar zamanı daşaraq kənd sakinlərinin fərdi təsərüffatına külli miqdarda ziyan vurur. Evləri, tövlələri, həyətləri su basır, malqaranı, toyuq-cücəni qabağına qatır. Çay kənarındakı yolu yuyur, fındıq və digər meyvə bağlarının altındakı torpağı aşındıraraq ərazi itkisinə səbəb olur.Kənd sakinləri deyir ki, heç olmasa ildə iki dəfə,yazda və payızda çay yatağı qazılaraq dərinləşdirilsə fəlakətin təsiri və boyutu bu qədər böyüməz...

Kəndin bu problemi ilə əlaqədar Balakən Meliorasiya və Su Təsərüffatı idarəsinin müdiri Ruslan Poladovla görüşdüyümüzdə, Ruslan müəllim bildirdi ki, problemi həll etməyə hazır və qadirik. Günü sabah məsələ ilə yerində tanış olduqdan sonra texnikanı ora yönəldəcək.

Molaçıbinə sakinlərini narahat edən məsələlərin birdəfəlik həlli əlbəttə ki, yuxarılarda, böyük vəsaitlərdədir. "Yeni Balakən" kənd sakinlərinin istəyini, məsələni yuxarıların diqqətinə çatdırmaq üçün işıqlandırır. Sağolsun yerdəkiləri, onlar kəndi vəziyyətdən, qismən də olsa əziyyətdən qurtarırlar.

Mollaçıbinə kəndi, Vətən Müharibəsi şəhidi Mollaçıyev Əhməd Rəcəb oğlunun kəndidir.

**Ramazan ABAL**
























# Qalibi təbrik edirik!

Nəhayət bir aya yaxın davam edən seçki yarışı sonlandı. Balakəndə,110 saylı Dairədən 8 namizəd arasında gedən seçki yarışının nəticəsini 1 Sentyabrda Balakənlilərin səsi müəyyən etdi.

Təbrik edirik, Nəsib müəllim. Balakənimə, Balakənlilərimə, dövlətimə xeyirli, düşərli olsun parlament seçkisindəki qələbəniz.

Uğurlar olsun!

Mərkəzi Seçki Komissiyası Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərinin ilkin nəticələrini açıqlayır.

**110 saylı Balakən Seçki Dairəsi - NƏSİB MƏHƏMMƏLİYEV - 59.4.**

Bu barədə MSK sədri Məzahir Pənahov məlumat verib.

YENİ BALAKƏN





AZƏRBAYCAN RESPUBLİKASI
ÜMUMİ ORTA TƏHSİL HAQQINDA
FƏRQLƏNMƏ
ATTESTATI

# Poştbinə kənd 1 saylı tam orta məktəbi

Təhsilimizdə uğurlar, yaxşı nəticələr, inkişaf görmək icmaiyyət olaraq arzumuz, amalımızdır. Balakəndə də ilbəil çox sayda qırmızı atestatları, yüksək bal toplayanları, ali məktəbə daxil olanları gördükcə rayonun təhsilə olan marağı, ailələrin övladları üzərindəki diqqəti, müəllimlərin öz peşələrini sevərək təhsilə keyfiyyət prizmasından baxdığını, şagirdə əsl pedaqoq yanaşması hiss olunur.

Bu günlərdə Balakən rayon Poştbinə kənd 1 nömrəli tam orta məktəbin 9-cu (indi 10-cu) sinif şagirdi Qardaşova Selena İmran qızı IX illiyi Qırmızı Atestatla bitirdi. Poştbinə 1 saylı məktəbin ilk uğurudur çox uzun illər sonra. Selenanı təbrik edirik. Bu uğur Selenanın da, oxuduğu məktəbin də digər, növbəti uğurlarının başlangıcı olsun.

YENİ BALAKƏN

# Balakəndə tibb xidməti müəssisələrinin sırası genişlənir







Balakəndə səhiyyə xidmətinin əhatəsi günü gündən genişlənir,keyfiyyəti yaxşılaşır, bir sıra uğurlara imza atır. 2010-cu ildə cənab Prezidentin Balakən rayon Mərkəzi Xəstəxanasının açılışını etməsi ilə başlayan səhiyyədə müasirlik, xidmətdə keyfiyyət, müsbətə doğru addımlar, yeniliklər bu gün də davam edir. Bu gün Balakəndə tibb ocaqlarının sırasına daha gözəl bir müəssisə, "ELMAS" klinikası əlavə olunaraq klinikanın açılış mərasimi oldu. Klinikanın açılış rəmzi olan qırmızı lenti Balakən RMX Publik Hüquqi Şəxsi, direktor Dilbər xanım Quliyeva, "ELMAS" klinikasının təsisçisi və direktoru Balayev Əfqan İdris oğlu birgə kəsdilər. Tədbirdə Balakən RMX-nın qocaman həkimləri, tibb işçiləri, şəhid ailəsi,qazi və I Qarabağ müharibəsinin veteranları iştirak etdilər.





Balakən səhiyyəsinin gücünə güc qataraq,əhate dairəsini daha da genişləndirmək, daha çox insana müxtəlif çeşiddə, keyfiyyətli tibbi xidmət göstərmək məqsədilə açılan "ELMAS" klinikası İTS ilə əməkdaşlıq edir. İcbari Tibbi Sığorta ilə müqavilə imzalayan "ELMAS" klinikasında, Balakən RMX-da olduğu kimi burda da Balakənlilər və ölkəmizin bütün vətəndaşları ödənişsiz xidmətlər paketinə daxil edilmiş bütün tibbi xidmətlərdən pulsuz istifadə edə biləcəklər. Klinika şəhid ailələrinə ümumiyyətlə pulsuz xidmət göstərir,qazi və veteranlara isə bir sıra güzəştlər edir. "ELMAS" klinikasında yüksək peşəkarlığa malik həkimlər çalışır. Bunlardan Türkiyə vətəndaşı həkim Furkan Altınbaşı, Gürcüstan vətəndaşı həkim Zülfiyyə Abuzərovanı, Naxçıvan MR sakini həkim Sevinc Əliyevanı misal göstərmək olar. Adlarını qeyd etdiyim həkimlərin Balakəndə yaşamaları,fəaliyyət göstərmələri, qanuni oturumu üçün klinika tərəfindən bütün rəsmi sənədləşmə işləri görülmüş,şərait yaradılmışdır. Klinikanın istər müayinə, istər müalicə,istərsə də farmokologiya sahəsində gələcək üçün perspektivləri,planları daha böyükdür. Hətta o səviyyədə ki, İTS ilə birlikdə daha da güclənən "ELMAS" klinikası artıq bu gündən Balakənimizin böyük və ciddi uğuru sayıla bilər.

Açılışda lentdən sonra kəsilən klinikanın şirinlik tortu vardı. Tort qəşəng, dadlı və şirin idi. Arzu edirik ki,gülərüz,şən, mehriban klinika personalının xəstələrə münasibəti, bu tort qədər şirin, özləri kimi gözəl olsun.Uğurlar, "ELMAS" klinikası. Səsiniz, sorağınız yüksəklərdən gəlsin.

Ramazan ABAL

# YENİ ŞƏRİF KƏND SƏNƏTKARLIQ EVİ







Yeni Şərif kənd Sənətkarlıq Evində Qadın zorakılığına qarşı mübarizə məqsədilə "Qadın zorakılığına yox deyək" adlı maarifləndirici söhbət keçirildi.

Tədbirdə çıxışlar zamanı qeyd edildi ki, bu gün ölkəmizdə uğurla həyata keçirilən Gender siyasəti, qadınların hüquq və azadlıqlarının qorunması, məişət zorakılıqlarının qarşısının alınması sahəsində bir sıra tədbirlər həyata keçirilir.

Yeni Şərif kənd Sənətkarlıq Evinin növbəti tədbiri isə yay tətilində uşaqların asudə vaxtının səmərəli keçirilməsi ilə əlaqədar stolüstü idman oyunlarından ibarət "mən qalibəm" adlı yarışdır.

Yarışmada "domino" oyununun qalibi Bicilov Ramazan, "dama" oyununun qalibi isə Bicilova Mələk oldu.

YENİ BALAKƏN

# Balakən rayonunda xalq artisti, bəstəkar Süleyman Ələsgərovun 100 illiyi ilə əlaqədar "Ömür notları" başlığı altında ədəbi-bədii gecə keçirildi



14.08.2024-cü il tarixdə Balakən Mədəniyyət Mərkəzində xalq artisti, bəstəkar Süleyman Ələsgərovun 100 illiyi ilə əlaqədar "Ömür notları" başlığı altında ədəbi-bədii gecə keçirildi. Ədəbi-bədii gecədə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən rayonu üzrə nümayəndə-baş məsləhətçisi Ş.Hacıyeva və Mədəniyyət Mərkəzinin direktoru Arzu Ocaxverdiyev çıxış edərək xalq artisti, bəstəkar Süleyman Ələsgərovun həyat və yaradıcılığı,əsərləri haqda geniş məlumat verdi. Çıxışlardan sonra bəstəkar haqqında hazırlanmış videoçarx tədbir iştirakçılarına təqdim olundu. Tədbirdə Burhan Rəşidovun ifasında "Gözlə məni", Rasim Əlqayevin ifasında "Gözəl Şuşa", Rasim Sərkərovun ifasında "Vətənimdir" və s. bəstəkarın əsərləri səsləndirildi.

YENİ BALAKƏN

## ALLAH RƏHMƏT ELƏSİN

Balakən 15 saylı Yol İstismarı MMC-nin və "Yeni Balakən" qəzetinin kollektivi Nizami Sarıyevə anası

**MUKSU XANIMIN**

vəfatından kədərləndiyini bildirir,dərin hüznlə baş sağlığı verir.

"Yeni Balakən" qəzetinin kollektivi Papaxov Mehman Məhəməli oğluna atası

**MƏHƏMƏLİNİN**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə baş sağlığı verir.

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qazet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100